# Məsuliyyət meyar olanda...

*Hər şey o məqamdan başlamalıdır. Uşaqlara göstərilən qayğı və diqqətdən. Onları sabahın layiqli vətəndaşı kimi yetişdirmək zərurətini mənəvi missiya olaraq dərk etmək və prioritet istiqamətə çevirmək əzmindən. Uzun illərdir ölkədə başlıca mövzulardan birinə çevrilməkdədir uşaq ədəbiyyatı. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2004-cü ildən başlayaraq bu sahəyə xüsusi diqqət ayrılmışdır. 2009-cu ilin Azərbaycanda "Uşaq ili" elan olunması və bununla bağlı xüsusi "Tədbirlər planı"nın hazırlanması da deyilənlərə əyani sübutdur. Cari ilin "Uşaq ili" elan olunması cəmiyyətin və dövlət orqanlarının diqqətini bir daha uşaqlarımızın problemlərinə yönəltməyə və bu sahədə yeni istiqamət və perspektivlərin müəyyənləşdirilməsinə xidmət etdi. Get-gedə bu yöndə aparılan polemikalar, yazılan məqalələr, təşkil olunan müşavirələr sabahlı bir uşaq ədəbiyyatı sisteminin düzgün qurulmasına yönəlmiş cəhdlərdir.*

Bir məqamı xüsusi vurğulamaq istəyirəm. Milli müstəqillik qazandığımız 90-cı illərdən sonra Azərbaycan mədəniyyətinin bütün sferalarında yeni təşəkkül, təshih və təfəkkür quruculuğu prosesləri getdi. Milli keçmişimizə münasibətdə ənənəvi əyintiləri aradan qaldırmağın yolları arandı. Bu kontekstdən kənarda qalan yalnız uşaq ədəbiyyatı oldu. Sovet imperiyasının çöküşünün iftratları ondan keçən nəslin tərcümeyi-halında bircə uşaqlığı ilə bağlı yaddaşını zədələmədi. Biz o dönəmdən ötürülən uşaq ədəbiyyatı nümunələrini, balaca qəhrəmanlarını əvvəlki kimi sevməyə davam etdik. Niyə? Çünki bu sahə özünə münasibətdə həmişə saf və duru münasibət tələb etdi. Çünki bu borcun - uşaqların sabahına yönəlmiş borcun arifmetikası olmadı. Bu gün də problemin bədii mətn, mənbə arsenalına, fakt-nümunə-predmet cəbbəxanasına yeni uşaq ədəbiyyatı nümunələri ərsəyə gətirməklə qatılmağın yollarını arayırıq.

Xatırlayıram, Yazıçılar Birliyinin sonuncu qurultayında çıxışı zamanı Prezident Administrasiyası Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə uşaq ədəbiyyatı ilə bağlı problemlərə xüsusi toxunaraq, bu sahədə ciddi boşluqların olmasını önə çəkmişdi. Fatma xanım mağazalarda rus dilində satılan kitabların üstünlük təşkil etməsindən, televiziyada uşaq verilişlərinin səviyyəsinin aşağı olmasından, teatr səhnələrində qoyulan tamaşaların uşaq psixologiyasına uyğun olmamasından danışmışdı. Cizgi filmlərində, nağıllarımızda milli obrazlarımızın yaradılmasının vacibliyi fikrini irəli sürmüşdü. O vaxtdan bir çox istiqamətlərdə canlanma, oyanış nəzərə çarpdı. Bir sıra dairələrdə uşaq ədəbiyyatının problemləri daim aktuallandı, nəşriyyatlar milli uşaq ədəbiyyatının dirçəlişi yönündə ardıcıl fəaliyyətə keçdilər. Ədəbiyyat İnstitutunda uşaq ədəbiyyatı ilə bağlı müşavirələr təşkil olundu və s. Müxtəlif ədəbi portallarda, qəzet və dərgilərdə uşaq ədəbiyyatının problemləri prioritet mövzunu təşkil etməyə başladı.

Çağdaş dövrdə - sürətli internet əsrində uşaqla davranmaq, onun dünyasını rəngarəng və maraqlı etmək daha böyük məsuliyyət tələb edir. Bunun üçün irəli sürülən təkliflər və reallaşan layihələr daha düşüncəli, daha məntiqli və inandırıcı olmalıdır. Problemlərdən danışıb qaldırılan mövzulara yenidən qayıtmaq istəmirəm. Əksinə, bu yöndə gerçəkləşən müqtədir addımları dəyərləndirmək lazımdır, düşünürəm. Tənqid ediriksə, bu yöndə edilən işləri də görməzdən gəlməli deyilik. Çünki bir xeyirxah işin uğuruna hesablanmış addım bizim sabahımızın uğurla tənzimlənməsi, sağlam gələcəyin təyin edilməsi üçün böyük önəm daşıyır. Uğurlar, əməllər isə var və mövzunun dərki üçün ona geniş spektrdə yanaşmanı zəruri edir.

Bu gün uşaq ədəbiyyatının təbliği, onun sistemli və planlı istiqamətdə meydana çıxmasına diqqət çabası Mədəniyyət və Turizm Nazirliyinin iş prinsiplərində aydın nəzərə çarpır. Yarandığı on il müddətində biz bu nüfuzlu qurumun fəaliyyətində elmə, ədəbiyyata, o cümlədən uşaq ədəbiyyatının inkişafına münasibətdə dürüst mövqe və həssaslıq və sistemli fəaliyyətinə yol açır. Digər bir fakt, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə 2016-cı il "Multikulturalizm ili"nə həsr olunan ənənəvi "Uşaq Kitab Karvanı şimal bölgəsində" layihəsinə start verilmişdi. 09-15 iyun 2016-cı il tarixində "Uşaq Kitab Karvanı şimal bölgəsində" çərçivəsində təşkil edilən səyyar kitab sərgiləri respublikanın şimal bölgəsini - Xızı, Siyəzən, Şabran, Xaçmaz, Quba və Qusar rayonlarını əhatə etdi. Bu nüans planlı uşaq ədəbiyyatı yaratmaqla bahəm, həm də kitabların lazımi ünvana çatdırılmasında meydanda olan ciddi problemlərin qarşısını alır. Tədbirin keçirilməsində əsas məqsəd uşaq ədəbiyyatına olan marağı yüksəltmək, uşaqları mütaliəyə cəlb etmək, səyyar sərgilərin keçiriləcəyi həmin rayonlarda uşaqların oxu ehtiyacını təmin etmək olmuşdur. Qeyd edək ki, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə baş tutan "Uşaq Kitab Karvanı" 2011-ci ildə "Uşaq Kitab Karvanı İpək yolu ilə" - (Goranboy, Gəncə, Şəmkir, Ağstafa, Tovuz, Qazax), 2012-ci ildə "Uşaq Kitab Karvanı - Cənub bölgəsində" - (Cəlilabad, Masallı, Astara, Lerik, Yardımlı), 2013-cü ildə isə "Uşaq Kitab Karvanı- Şirvan yolunda" - (Şirvan, Saatlı, Hacıqabul, Sabirabad, İmişli, Beyləqan) adı altında keçirilib.




Bu sahə özünə münasibətdə həmişə saf və duru münasibət tələb etdi. Çünki bu borcun - uşaqların sabahına yönəlmiş borcun arifmetikası olmadı. Bu gün də problemin bədii mətn, mənbə arsenalına, fakt-nümunə-predmet cəbbəxanasına yeni uşaq ədəbiyyatı nümunələri ərsəyə gətirməklə qatılmağın yollarını arayırıq.

gördük. Mədəniyyət və Turizm Nazirliyinin bu yöndə gerçəkləşdirdiyi işlər sırası uşaqların mənəvi-əxlaqi dəyərlər baxımından kamilləşməsi, yüksək keyfiyyətlərin onlar üçün estetik sərvətə çevrilməsi istiqamətində xüsusi əhəmiyyət daşıyır. Artıq iki ildir ki, Nazirliyin əsas müsabiqələrindən olan "Qızıl kəlmə" mükafatının tərkibinə uşaq ədəbiyyatı da daxil edilib. Bunun özü bir tərəfdən, uşaq ədəbiyyatını gündəmdə, göz önündə saxlamaq, ən dəyərli nümunələri vaxtında seçib dəyərləndirməyə imkan verirsə, digər tərəfdən, müsabiqənin şərtlərindən stimul alan müəlliflərin bu yöndə ardıcıl

Mədəniyyət və Turizm Nazirliyinin uşaq ədəbiyyatı ilə bağlı məsələyə münasibəti daha sistemli və düşünülmüş formada nəzərə çarpır. Ümumiyyətlə, Nazirliyin bir çox məsələlərdə operativ davranışı, mədəniyyət sahəsindəki boşluqları dəf etməyə fokuslanan keyfiyyətli iş göstəricisi göz qabağında olan gerçəklikdi. İndi də bu qurum azyaşlı və məktəbli oxucuların mütaliəsini artırmaq,



Elnarə AKİMOVA

həmçinin ölkəmizdəki dövlət kitabxana fondlarının zənginləşməsini təmin etmək məqsədi ilə "2016-cı il ərzində müasir tələblərə uyğun qiymətli uşaq ədəbiyyatı nümunələrinin bərpası, çapı və ya satın alınması" adlı illik nəşr planı hazırlamış və icrasına başlamışdır. Hələ ilkin mərhələdə gerçəkləşən bir çox layihələr uşaq ədəbiyyatın təbliği istiqamətində önəmli addımlardan sayılmalıdır.

Cari ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən nəşr məhsullarının satınalınması müsabiqəsi çərçivəsində (on nəşriyyatdan alınmış 130 çeşiddə kitab) alınmış uşaq ədəbiyyatı çoxcəhətliliyi - həm zahiri məziyyətlərin miqyası, həm də uşaq dünyasının mənəvi dəyər, əxlaq və tərbiyə hüdudlarını çevrələməsi ilə seçilir. Müxtəlif nəşriyyatlar və fərdi uşaq ədəbiyyatı yaradıcılarından alınmış bu kitablar bir neçə keyfiyyəti ilə diqqət çəkir.

Bu nəşrlərin hər birini nəzərdən keçirdik. Sadəcə, bir məqsədlə... İndiki kommersiya maraqlarının milli maraqları üstələdiyi bir zamanda Nazirliyin meydana qoyduğu nümunələr hansı məziyyətləri ilə seçilir? İlk diqqət çəkən məqam jurnal və kitabların yüngüllüyü və ölçüsü oldu. Təbii ki, uşaq həm maraq dairəsi baxımından, həm də psixoloji olaraq qalın, ağır və böyük ölçülü kitabı qəbul edə bilməz. Uşaq ədəbiyyatı nəşrləri, təbii ki, antologiyalar istisna edilməklə, uşaqları maraqlandıran, onların mətni qavramasına yardımçı olan bir formatda olmalıdır. Digər əhəmiyyətli məqamlardan biri kitabın içərisində yer almış rəsmlərin uşaqların yaş səviyyələrinə uyğunluğu ilə bağlıdır. Aydındır ki, uşaq kitabda yer almış şəkillər vasitəsilə deyiləni daha asan, daha tez şəkildə qavramaq imkanı qazanır. Kiçik və orta yaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu kitablarda mətnin tələb etmədiyi, məzmunla əlaqəsi olmayan rəsmə rast gəlinmir. Və ən əsası, millətin tarixi, mənəvi-mədəni keçmişi, folklor mətnləri ilə əlaqəli olan bu rəsmlərdə hər bir detala xüsusi həssaslıqla yanaşılmış, milli-fərdi cizgilər əksini tapmışdır.

Bu gün ən çox səsləndirilən fikir budur: indi uşaqlar sürətli internet əsrinin övladlarıdı. Onları təmin etmək, estetik tələbatlarını ödəmək çətindir. Bu fikirdə təbii ki, müəyyən həqiqət var. Etiraf etmək lazımdır ki, müasir uşaq öz təfəkkürü, anlaq səviyyəsi, qavram bacarığı və tezliyi baxımından ən azı heç 20-30 il bundan əvvəlki uşaqla eyni deyildir. İndiki uşaqların təfəkkürü daha çevik və dinamik, düşüncə bacarığı daha sürətli, bilgi, yaxud informasiya alma əhatəsi daha genişdir. Bu baxımdan uyğun materialların,

bilgi və informasiyanın çatdırılma vasitələrinin çeşidliliyi də əhəmiyyətli rol oynayır. Amma uşaqların düzgün tərbiyələnməsi, onların zövqünün formalaşması, sabahın ləyaqətli bir insanı kimi yetişdirilməsi üçün ultramodern adlara meyil etməyə, texnogen sivilizasiyanın pik həddinə əsaslanıb nağıl quraşdırmağın önəmi bu qədərmi çoxdur? Yox, məncə. Doğru olan uşaqlarımıza aşınanan düzgün təməlli tərbiyədir. İnsan xislətində yer almış dəyərlərin onlara sadə, rəvan bir dillə çatdırılmasıdır. Nazirlik bu məsələyə xüsusi diqqət ayırmış, milli bədii nümunələrdən müvafiq seçmələri uyarlı şəkildə çap etmişdir. Bu kontekstdə baş tutan layihə çərçivəsində uşaq ədəbiyyatı nümunələrinin nəşri bir neçə istiqamətdə həyata keçirilmişdir. Belə ki, burada klassik bədii mətnlər, çağdaş uşaq ədəbiyyatı nümunələrindən tutmuş rus və Avropa ədəbiyyatı nümunələrinin olduğunu görürük. Nizami Gəncəvinin "Xeyir və Şər", "İlin fəsilləri", "Nuşirəvanla vəziri və bayquşların söhbəti", "Simnar", "Türküstan gözəlinin hekayəti", M. Füzulinin "Meyvələrin söhbəti" və s. - bu kitabların tarixi rolu göz önündədi. Onlar yaddaş, milli düşüncə zəminidi və Nazirliyin klassik irsə müraciətinin kökündə də bu amil dayanır. Kökünə, milli keçmişinə bağlı və sadiq bir nəsil yetişdirmək...

Nəşrlərdə diqqət çəkən məqamlardan digəri məhz, seçilən mətndə ibrətamiz motivlərin yer almasıdır. Konkret hər mətnin ideyası uşaqlara həyat təcrübəsi aşılamağa, onlardakı humanist duyğuların gücləndirilməsində rol oynamağa hesablanıb. M.Dilbazinin "Danışılmamış nağıllar", M.Cəlalın "Yuxu və külək", Ə.Cəfərzadənin "Qızımın hekayələri", M. Rzaquluzadənin "El gücü", A.S.Puşkinin "Qızıl xoruz", V.Mayakovskinin "Hansı sənət yaxşıdır", N.Nosovun "Yamaq", "Zəng" (Çin xalq nağılı), "Əlcək" (Ukrayna xalq nağılı) və s., və i., - hər biri seçilən hekayətlərdir və humanizm, insan ləyaqəti və vətənpərvərlik idealları uğrunda mübarizənin bədii-estetik gözəlliyini açmaq, uşaqları əxlaqi-tərbiyəvi istiqamətə yönəltmək baxımından düşünülmüş niyyətin təzahürüdür.

Yaxud uşaq folkloru məsələsi... Uşaq folkloru nümunələrinin, eləcə də ümumfolklor xəzinəmizdə əxlaqi-mənəvi keyfiyyətli motivləri əks etdirən bir sıra mətnlərin uşaqların yaş xüsusiyyətlərinə uyğun şəkildə işlənilmiş variantlarının sözügedən formatda vizual təqdimatı məsələsi kompleks yanaşma tələb edir və bu gərəkli işdə dövlət nəzarəti və qayğısına ehtiyac vardır. Mədəniyyət Nazirliyi nəşrlər içərisində bu məsələyə xüsusi diqqət yetirilib. X.Əlibəylinin "Mərcanqulu əfsanəsi", M.Y.Lermontovun "Aşıq Qərib" və s. kimi mətnlərdə folklor elementlərinin güclü yer alması, mövzuya fərdi yanaşma nümayiş olunsa da milli dəyərlərin qorunması çabasının daha aparıcı olması məsələyə ciddi və həssas münasibəti sərgiləyir. Qeyd etmək lazımdır ki, bu gün folklor nümunələrinin, dastanlarımızın, əfsanə və rəvayətlərimizin uşaqların müxtəlif yaş dövrlərinə müvafiq ekran variantının yaradılmasına böyük ehtiyac vardır. Belə nümunələr arsenalımızda az deyil təbii. Elə son olaraq, "Kitabı-Dədə Qorqud" dastanından ekranlaşdırılan "Basatın Təpəgözü öldürdüyü boy"la "Uşun qoca oğlu Səgrək boyu" artıq belə bir formatda mövcuddur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xətti ilə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmiş "Səkrəyin dastanı" (1990), "Basat və Təpəgöz" (2003) kimi yaradıcılıq işlərini maraqlı və uğurlu hesab etmək olar. Bunlar nəticə etibarilə təfəkkürdə mənəvi-mədəni və tarixi keçmişimizlə bağlı konkret təsəvvürlərin formalaşmasına gətirib çıxarır. Bütün bunlar Mədəniyyət Nazirliyinin məsələyə planlı yanaşmasını meydana qoyur. Seçilən mətn sadələşdirib yüksək vizual formada təqdim olunduqdan sonra ekran həyatını yaşamağa başlayır, yaddaşlara köçür, milli dəyərlərin yaşanması və təbliği istiqamətində gərəkən missiyanı gerçəkləşdirir. Elə son nəşrlərdə təqdim olunan nümunələrin səviyyəsi onlardan gələcək üçün faydalanmağa imkan yaradır: "Aspoliqraf LTD" MMC nəşriyyatının hazırladığı "Babək", "Şah İsmayıl Xətai", "Ağabəyim ağa" kitabları tarixi keçmişimizin balacalara tanıdılması istiqamətində gərəkli nümunələrdir. Yəqin ki, nə zamansa onların yüksək bədii ekran variantını da görə biləcəyik.

Kitabların üstün cəhətlərindən digəri uşaqlara əşyalar, heyvanlar, bitki aləmi, ətraf aləm, məişət detalları haqqında geniş məlumat verilməsidir. Burada müəllif yalnız təqdim etmir, uşağı düşündürür, əlifbanı öyrənməyə cəlb edir, onu məlumatlandırır, maraqlı şəkillər vasitəsilə verdiyi informasiyanı möhkəmləndirir, konkretləşdirir. Rəhilə Hüseynovanın "Tapmacalar", Sevda Bəxtiyarın "Tapmacalı şeirlər" və "Hərflərin bayramı", Musa Bədəlov "Sənin maraq dünyan" (ensiklopedik məlumat kitabı), "Xan nəşriyyatı"nın hazırladığı "Məktəbəqədər məntiq", "Məktəbəqədər çəkirəm, yazıram", "Məktəbəqədər ətraf aləm" və s. nümunələrdəki məziyyətlər - səslərə aid ritmik, ahəngdar, yumorlu, məzəli yanıltmaclar, düşündürücü, beyni, zehni inkişaf etdirən hər hərfə uyğun tapmacalar, öyrədici hekayələr balaca oxucunun diqqətini cəmləşdirmək, oxuduğunu, öyrəndiyini əyani şəkildə görmək baxımından əhəmiyyətlidir.

Aydındır ki, yazılan nəsr əsərlərində bədiiliyin olduqca zəif olması, dilin qüsurlu, hadisələrin ənənəvi tərtibatı, reallığın çox zaman bədiiliyə çevrilə bilməməsi balacalarla bağlı meydana qoyulan işin keyfiyyətinə kölgə salır. "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-in təqdim etdiyi "Heydərbabaya salam", "Koroğlunun Ərzuruma səyahəti", "Qədim Bakıya səyahət", "Nağıllar", "Fitnə" kimi nümunələrin timsalında bu qüsurların heç biri nəzərə çarpmır. Digər tərəfdən, uşaqlar üçün yazılan nəsr əsərlərində dolğun məzmunlu, cəlbedici xarakterin yaradılmaması bu gün də qüvvədə olan problemlərdən biridir. Axı uşağın zövqü, həyat haqqında təsəvvürü oxuduğu kitablardan çox asılıdır. Uşaqlar ədəbi qəhrəmanlara çox həssas yanaşır və özlərini onlara oxşatmağa çalışırlar. Buna görə də bu gün də uşaq ədəbiyyatında güclü xarakterlər yaradılması həlli vacib məsələlərdəndir. Mədəniyyət və Turizm Nazirliyi o mətnlərə daha çox üstünlük verib ki, uşaqların öz kökünə, etnosuna, milli-mənəvi dəyərlərinə bağlılığını təmin etməklə bahəm onlarda fərdi keyfiyyətlərin qazanılmasına vasitəçilik etməyi məqsədə çevirsin. Çünki yalnız belə bir harmonik düzəndə gələcəyin işıqla dolu şəxsiyyəti yetişə bilər.

Dediyim kimi... Hər şey o məqamdan başlayır. Uşaqlara göstərilən qayğı və diqqətdən... Və bir də səlahiyyətlərdən məsuliyyətlə yararlanmaq, onu meyara çevirmək nəcibliyindən... Yalnız bu halda görülən işlərin miqyas və ölçüsü onu dərin nüfuzun predmetinə çevirməyə imkan verir.

**Ədəbiyyat qəzeti.- 2016- cı il.- 5 noyabr.- S. 15.**